

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 247 (21.148)**

***26 dekabr 2014-cü il, cümə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Bakıda "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "+82 Qərb" su anbarının ərazisində yeni salınan "Yasamal" parkının açılışında iştirak edib.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov parkın tikintisi ilə bağlı dövlətimizin başçısına məlumat verdi.

Dövlətimizin başçısı parkın rəmzi açılışını bildirən lenti kəsdi.

Yeni salınan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Parkda abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilib, geniş yaşıllıq işləri görülüb. Parkda iki uşaq oyun meydançası və böyüklər üçün idman meydançası yaradılıb. Eyni zamanda parkın ərazisində iki kafe fəaliyyət göstərəcək. Parkın salınması zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, istirahət məkanı orijinal elementlər və formalarla zənginləşdirilib. Həmçinin parkın ərazisində müxtəlif fəvvarələr, süni şəlalələr və xüsusi dizaynla hazırlanmış bulaqlar quraşdırılıb.

Prezident İlham Əliyev "+82 Qərb" su anbarları kompleksinin 3-cü, 4-cü və 5-ci anbarları ilə də tanış oldu.



## Heydər Əliyev Muzeyində növbəti açıq dərs



Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Qızlar Liseyi şagirdlərinin iştirakı ilə açıq dərs keçilib. Açıq dərsdə liseyin tarix müəllimi Gülşən Ağayeva "1970-1985-ci illərdə Azərbaycanın siyasi-iqtisadi suverenliyinin təməlinin qoyulması" mövzusunda danışıb. Bildirib ki, tarixdə elə nadir simalar olur ki, onlar yalnız zamanın gərgin və təlatümlü məqamlarında meydana çıxır, bütöv bir millətin və ya ölkənin taleyüklü məsələlərində ölçüyəgəlməz məsuliyyəti üzərlərinə götürərək böyük bir missiyanı şərəflə yerinə yetirirlər. Dünyada belə tarixi şəxsiyyətlər çox azdır. Ancaq xoşbəxtlikdən Tanrı Azərbaycan xalqına Heydər Əliyev kimi dahi bəxş etmiş, müdrik rəhbər misilsiz xidmətləri ilə xalqımızın əsl xilaskarına çevrilmişdir.

Qeyd olunub ki, ötən əsrin 60-70-ci illərində – ölkə iqtisadiyyatının, bütövlükdə, dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoyduğu bir şəraitdə ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi Azərbaycanın qarşısında duran bir çox taleyüklü suallara aydın cavablar tapılması və onların ardıcıl həll edilməsi baxımından tarixi bir hadisə oldu. Tezliklə Azərbaycanda sənaye, tikinti, kənd təsərrüfatı, təhsil və mədəniyyətin inkişafı sahəsində nəhəng işlər göründü. Xüsusilə 1970-80-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə o dövrdə neft sənayesində maddi-texniki baza yaradılmasaydı, müstəqillik dövründə əldə edilən nailiyyətlər, o cümlədən nəhəng neft strategiyası da ola bilməzdi. Bütün bunlarla yanaşı, ötən əsrin sonlarında ölkəmizin ərazi bütövlüyünün pozulması ilə nəticələnən məlum hadisələrin, eyni zamanda Azərbaycanın parçalanmaq, dövlətçiliyinin itirilməsi təhlükəsinin qarşısı yenə də xalqın böyük tələbi ilə ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı nəticəsində alındı.

Vurğulanıb ki, dahi şəxsiyyətin müstəqil Azərbaycana rəhbərliyi dövründə ölkəmiz tarix üçün çox qısa bir dövrdə sürətli inkişaf yoluna qədəm qoydu. Hələ ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə ölkəmizdə bir çox sahələr üzrə əldə olunmuş nailiyyətlər, eyni zamanda milli özünüdərkin yüksəlişi gələcək müstəqil dövlətin bərpasına xidmət edən strategiyanın tərkib hissəsi idi. Məhz bu strateji xətt 1993-cü ildən sonra özünün yeni inkişaf mərhələsinə qədəm qoydu və Azərbaycanın qısa müddətdə dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli yer tutmasına imkan verdi.

**Səbuhi HƏSƏNOV**

***Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin növbəti, 188-ci məşğələsi keçirilib.***

## Milli həmrəylik xalqın yenilməz gücü, qüdrətidir



"Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi" mövzusuna həsr olunmuş məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu əlamətdar günün tarixi əhəmiyyətindən, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli həmrəyliyinin formalaşmasındakı misilsiz xidmətlərindən bəhs edib. Qeyd olunub ki, xalqımız ən ağır, çətin məqamlarda Azərbaycançılıq ideologiyasının banisi, ömrünü xalqının xoşbəxt və firavan gələcəyinə həsr edən ümummilli liderin ətrafında sıx birləşməklə möhtəşəm tarixi nailiyyətlərə imza atıb.

Universitetin "Qeyrət" nəşriyyatının direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent, şair-publisist Vaqif Məmmədov mövzu ilə bağlı məruzə edərək Azərbaycançılıq və milli həmrəylik ideyalarının XX əsrin sonlarında daha geniş vüsət almasından danışıb. Bildirilib ki, 1989-cu ildə Naxçıvanda sərhəd hərəkatı başlayıb, milli birlik uğrunda mübarizənin təməli qoyulub. Baş verən ictimai-siyasi proseslərə məhz ilk dəfə ulu öndər Heydər Əliyev düzgün siyasi qiymət verərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1991-ci il dekabrın 16-da 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması ilə bağlı xüsusi qərar imzalayıb. Məruzədə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan diasporunun formalaşması istiqamətindəki siyasi fəaliyyətindən, dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi və Azərbaycanın dünya siyasət arenasında layiqincə təmsil olunmasındakı rolundan bəhs edilib.

Bildirilib ki, bu gün dünyanın dörd bir tərəfində yaşayan, fəaliyyət göstərən həmvətənlərimiz iqtisadi-siyasi cəhətdən inkişaf etmiş, müstəqil, demokratik dövlətləri, vahid vətənləri olduğu üçün fəxr edirlər. Bu gün ümummilli liderin Azərbaycançılıq ideologiyası ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev Fondunun Azərbaycanın dünyada tanınması, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində gördüyü işlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan diasporu isə milli maraqlarımızın, müstəqil Azərbaycan dövlətinin qətiyyətli siyasətinin müdafiəsi üçün fəaliyyətini gələcəkdə daha da gücləndirməlidir.

**Mehriban SULTAN**

## Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi Amerika Birləşmiş Ştatlarının Konqresində qeyd edilmişdir

Siyasi zərurətdən doğan Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Bu gün bu reallıq dünyanın tanınmış politoloqları, strateqləri tərəfindən xüsusi vurğulanır. Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə sıx bağlıdır. Qədim diyarın ərazi baxımından Azərbaycandan aralı düşməsi, ölkəmizlə heç bir sərhədə malik olmaması onun inzibati idarəçiliyinin məhz muxtariyyət şəklində reallaşdırılmasını zərurətə çevirmişdir. Məhz buna görə də XX əsrin əvvəllərində Naxçıvanın üzərini qara buludların aldığı bir vaxtda öz elinə, obasına, torpağına, milli kökünə bağlı olan Vətən övladları istər hərbi, istərsə də siyasi-diplomatik sahədə bütün mümkün vasitələrdən istifadə edərək qədim yurdumuzu qoruyub saxlamış, onun Azərbaycanın tərkibində qalması, yaşaması, inkişafı üçün zəruri olan muxtariyyət statusunun alınmasına nail olmuşlar.

Bütün bunları nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il yanvarın 14-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2014-cü ili muxtar respublikada "Muxtariyyət ili" elan etmişdir. Artıq "Muxtariyyət ili" sona çatmaqdadır. Qürurla deyə bilərik ki, bu günədək muxtar respublikada, ümumilikdə, Azərbaycanda, o cümlədən Türkiyədə, Bolqarıstanda, Cənubi Afrika Respublikasında və digər ölkələrdə Naxçıvan muxtariyyətinin 90 illik yubileyi ilə bağlı bir sıra silsilə tədbirlər keçirilmişdir. Şübhəsiz ki, həmin tədbirlərin ən möhtəşəmi Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə bu il aprelin 8-də keçirilən Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim olmuşdur.

Bu tədbirlərin davamı kimi noyabrın 25-də ABŞ Konqresinin binası olan Kapitolidə senator Ronald H.Johnsonun müraciəti əsasında Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illik yubileyi qeyd olunmuşdur. Bu əlamətdar tarixin şərəfinə Kapitoli binası üzərində ABŞ-ın dövlət bayrağı qaldırılmış və Konqres adından Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin qeyd edilməsi haqqında rəsmi sertifikat təqdim edilmişdir.



ARCHITECT OF THE CAPITOL

THE FLAG OF THE UNITED STATES OF AMERICA

This is to certify that the accompanying flag was flown over the United States Capitol on November 25, 2014.

At the request of the Honorable Ronald H. Johnson, United States Senator, this flag was flown to commemorate the 90th Anniversary of the Autonomous Republic of Nakhchivan, Republic of Azerbaijan.

2015 - 005588 - 001

Stephen T. Ayers, FAIA, LEED AP
Architect of the Capitol

Sertifikat mətnində yazılır: *"Bu sertifikat təsdiq edir ki, 25 noyabr 2014-cü il tarixdə müşayiətedici bayraq ABŞ Senatının binasında dalğalanmışdır. ABŞ senatoru hörmətli Ronald H.Johnsonun müraciəti ilə bu bayraq Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının yaranmasının 90-cı ildönümünün xatırlanması münasibəti ilə Senat binasında dalğalandırılmışdır".*

Əlamətdar tədbirin təşəbbüskarı Amerika Birləşmiş Ştatlarında yaşayan müstəqil jurnalist və tədqiqatçı Peter Tasedir. Peter Tase bu il Bakı şəhərində keçirilmiş IV Beynəlxalq Humanitar Forumun iştirakçısı olmuş, bir qrup forum iştirakçısı ilə Naxçıvana səfər etmiş, qədim diyarımızın zəngin tarixi və mədəniyyəti ilə yaxından tanış olmaq imkanı əldə etmişdir.

Naxçıvanla yaxından tanış olmuş Peter Tase öz təəssüratlarını ABŞ-da nəşr olunan "Foreign PolicyNews", "Eurasireview", "Eurasia Hoy", Litvada nəşr olunan "Slaptai" qəzetlərində, İspaniyanın "Diariosigloxxi" portalında, Bosniya-Hersoqovinada nəşr olunan "Diegon pro" jurnalında işıqlandırmışdır. Bunlarla yanaşı, tədqiqatçı-jurnalist öz məqalələri ilə Azərbaycan həqiqətlərinin, Naxçıvanın tarixinin və mədəniyyətinin, Naxçıvana qarşı əsassız erməni iddialarının, 20 Yanvar faciəsi və Xocalı soyqırımının dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına çalışır.

Nə yaxşı ki, ikili standartların həyat standartlarına çevrildiyi, haqqın güc deyil, gücün haqq olduğu bir dövrdə belə vicdanlı və ədalətli insanlar var. 20 ildən artıq bir dövrdə Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan Muxtar Respublikasının keçdiyi tarixi yolla, əldə etdiyi uğurlar və nailiyyətlərlə tanış olan Peter Tase Naxçıvana heyranlığını gizlətməmiş, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin Amerika ictimaiyyətinin diqqətinə çatdırılması üçün senator Ronald H.Johnsona yazılı müraciət etmişdir. Müraciətdə Naxçıvanın qədim Azərbaycan torpağı olduğu, ötən əsrdə baş vermiş tarixi-siyasi proseslər nəticəsində Azərbaycandan ayrı düşdüyü və hansı şərtlər altında muxtariyyət statusu alması barədə ətraflı məlumat verilmişdir.

Peter Tasenin Naxçıvan və onun muxtariyyəti barədə söylədiyi fikirlər Ronald H.Johnsonda dərin təəssürat yaratmış və buna görə senator Kapitolidə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin qeyd olunması təşəbbüsü ilə çıxış etmişdir.

ABŞ-da muxtariyyətin 90-cı ildönümünün ən yüksək səviyyədə qeyd olunması Azərbaycan Respublikasının dünyada gündən-günə artan nüfuzundan, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının mühüm strateji əhəmiyyətə malik olmasından irəli gəlir. Kapitolidə qeyd olunan bu tədbir Naxçıvanın muxtariyyətinin beynəlxalq unikal bir model, hüquqi, siyasi və tarixi baxımdan bir fenomen kimi qiymətləndirildiyinin bariz nümunəsidir.

**Xəbərlər şöbəsi**

# Naxçıvan şəhəri yeni inkişaf mərhələsinə qədəm qoyub

## “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram” uğurla həyata keçirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 yanvar 2014-cü il tarixli Sərəncamı ilə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə ikiillik proqram təsdiqləndi. “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram” 90 illik muxtariyyətin ictimai, siyasi, mədəni mərkəzi olmuş Naxçıvan şəhərinin iki il ərzində inkişaf xəttini müəyyənləşdirdi. Bir zamanlar bütün Yaxın və Orta Şərqin əsas siyasi və mədəni mərkəzlərindən biri olmuş, hazırda isə yerləşdiyi Cənubi Qafqaz regionunda ictimai-siyasi fikrin formalaşdığı əsas mərkəzlərdən biri olan Naxçıvan şəhərinin infrastrukturunun inkişaf etdirilməsi və genişləndirilməsi ilə yanaşı, qədim şəhər mədəniyyətinə malik Naxçıvanın tarixiliyinin qorunması da proqramda öz əksini tapıb.***

Yeni proqramda inzibati binaların tikintisi və təmiri, rabitə sahəsinin inkişafı, şəhərin istilik, su təchizatı və kanalizasiya sisteminin yeniləşdirilməsi, elektrik enerjisi və qaz təchizatının daha yüksək səviyyədə təmin olunması, yol təsərrüfatı və nəqliyyat sahəsinin müasir standartlara uyğunlaşdırılması, yaşıllaşdırma və abadlıq işlərinin davam etdirilməsi, gənclər və idman, təhsil, səhiyyə, mədəniyyət sahələrinin maddi-texniki bazalarının daha da gücləndirilməsi, yaşayış sahələrinin tikintisi və təmiri, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, kənd təsərrüfatının infrastruktur təminatı sahəsində konkret vəzifələr müəyyənləşdirilib.

Proqramda nəzərdə tutulan işlərin bir hissəsi artıq həyata keçirilib, xeyli hissəsi isə icra olunmaqdadır. Bu gün Naxçıvan şəhəri, sözün həqiqi mənasında, bir tikinti meydançasını xatırladır. Təkcə Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin kollektivi Naxçıvan şəhərində 10-dan çox obyektdə tikinti, quruculuq və abadlıq işləri aparır.



### *Yeni yaşayış binası tikilir*

Yeni mərhələyə qədəm qoyan Naxçıvan şəhərində üz tutduğumuz ilk ünvan Naxçıvan şəhərinin “İstiqlal” küçəsi oldu. Burada Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin kollektivi tərəfindən böyük bir yaşayış binası inşa olunur. Zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan binanın artıq sonuncu mərtəbəsində hörgü işləri aparılır, dam örtüyü vurulur.

Bu ilin iyun ayında tikintisinə başlanılan binanın vaxtında təhvil verilməsi üçün var qüvvələri ilə çalışdıqlarını bildirən iş icraçısı Zamin Şükürov tikintidə, əsasən, yerli tikinti materiallarından istifadə olunduğunu bildirdi. İş icraçısı onu da vurğuladı ki, tikilən bina müasir üslubda və günün tələblərinə uyğun inşa olunur.

Söhbət əsnasında onu da öyrəndik ki, yeni yaşayış binası 30 mənzildən ibarət olacaq. 30 ailənin sevincinə səbəb olacaq bu yaşayış binasında digər iaşə obyektləri də fəaliyyət göstərəcək.

Şəhərimizin mərkəzində inşa olunan bu əzəmətli yaşayış binası gənc ailələrin mənzillə təmin olunacağı məkan kimi ərazinin gözəlliyinə yeni çalarlar qatacaq.

### *İncəsənət məktəbi müasir binada fəaliyyət göstərəcək*

Naxçıvan şəhərində aparılan tikinti-quruculuq və abadlıq işlərindən incəsənət sahəsinə də kifayət qədər pay düşüb. Bu günədək şəhərimizdə bir neçə musiqi və incəsənət məktəbi ya yenidən tikilərək, ya da əsaslı təmir-bərpa işlərindən sonra istifadəyə verilib. Bu sahədə görülən işlərin davamı olaraq, Naxçıvan şəhərində İncəsənət məktəbi üçün müasir bina inşa olunur.

Binanın tikintisinə bu ilin mart ayında start verilsə də, obyektdə xeyli iş görülüb. Çardaq hissədə işlər yekunlaşdırılıb, pəncərələr salınıb, daxildə isə suvaq işləri aparılır. Eyni zamanda binanın birinci mərtəbəsinin fasad hissəsi üzlük daşla üzlənir. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada işlərin sürətlə aparıldığını deyən iş icraçısı bildirdi ki, binanın zirzəmi hissəsində böyük zal, kitabxana, qazanxana, anbar və sinif otaqları fəaliyyət göstərəcək. Binanın digər mərtəbələrində isə direktor otağı, nəzəriyyə sinfi, 2 musiqi ədəbiyyatı kabinəsi, xor sinfi, böyük konsert zalı və 30-dan çox sinif otağı olacaq.

### *Xatirə Muzeyi üçün yeni bina*

Muxtar respublikada milli və mədəni irsin qorunub saxlandığı, təbliğ və nümayiş olunduğu muzeylərin yaradılmasına, onların fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasına xüsusi diqqət yetirilir. Muzeylərimizə böyük diqqət və qayğı ilə yanaşan Ali Məclisin Sədri muzeylərin fəaliyyəti ilə hər zaman yaxından maraqlanır, onların fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması üçün hər cür şərait yaradır. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan şəhərində Xatirə Muzeyi üçün yeni bina inşa olunub.

Xüsusi memarlıq üslubunda tikilən bina iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə muzey əməkdaşları üçün iş otaqları, ikinci mərtəbədə isə geniş ekspozisiya zalı yaradılıb. Binada bütün işlər yekunlaşdırılıb.

Muzey binasının əhəmiyyətini artıran mühüm amillərdən biri də onun Şəhidlər xiyabanı yaxınlığında yerləşməsidir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş naxçıvanlıların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əks etdirən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdiriləcəkdir.

### *Avtomobil dayanacağı müasir standartlara cavab verəcək*

“2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”da yolların yenidən qurulması, ictimai nəqliyyat üçün dayanacaqların quraşdırılması kimi məsələlər də nəzərdə tutulub. Əksər ailələrin avtomobilinin olması, Naxçıvan şəhərində avtomobil zavodunun fəaliyyət göstərməsi regionun yüksək inkişafından xəbər verir. Bütün bunlar tələb edir ki, nəqliyyat kompleksinin inkişafı, avtomobil yollarının və yol infrastrukturunun genişləndirilməsi, nəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkətinin təmin edilməsi diqqət mərkəzində saxlanılsın. Məhz buna görə də muxtar respublikada bu məsələlərin kompleks şəkildə həyata keçirilməsinə xüsusi qayğı göstərilir. Bu qayğının nəticəsidir ki, Naxçıvan şəhərində hazırda 2 avtomobil dayanacağı kompleksi inşa olunur. “Atabəylər” məhəlləsində inşa olunan bu dayanacaq zirzəmi ilə birlikdə iki mərtəbədən ibarət olacaq. Hazırda burada beton-qəlib işləri davam etdirilir, binanın bəzi hissələrində isə hörgü işləri aparılır.

Dayanacağın təkcə zirzəmi hissəsi 304 avtomobil üçün nəzərdə tutulub ki, bu da gələcəkdə Naxçıvan şəhərində yarana biləcək avtomobil sıxlığının qarşısını alacaqdır. Bundan əlavə, ikinci mərtəbədə də avtomobillərin saxlanması və satışı nəzərdə tutulur. Həmin mərtəbədə həmçinin ehtiyat hissələrinin satışını həyata keçirən 51 mağaza da fəaliyyət göstərəcək ki, bu da əhalinin rahatlığına xidmət edəcək. Bu mağazalarda istənilən avtomobilin ehtiyat hissələrini əldə etmək mümkün olacaq. Burada avtomobillərin ehtiyat hissələrinin sifarişi də həyata keçiriləcək.

Müasir standartlara cavab verəcək avtomobil dayanacağında mətbəx, yeməkxana, həmçinin elektrik, çilingər və yuyucu sexləri də fəaliyyət göstərəcək. Bütün bunlar isə avtomobil sahiblərinə keyfiyyətli xidmət etməyə imkan verəcəkdir.

### *Hamamın tikintisi sürətlə aparılır*

Naxçıvan şəhərinin “Atabəylər” məhəlləsində inşa olunan yeni hamamın tikintisi də sürətlə aparılır.

Memar Hicran Rüstəmovun layihəsi əsasında inşa olunan hamamın quruluşunda, əsasən, Şərq hamamına məxsus çalarlar öz əksini tapıb. Üç böyük günbəzlə daha da əzəmətli görünən hamam binası 3 hissədən ibarətdir.

İş icraçısı Yusif Əliyevdən aldığımız məlumata görə, obyektdə işlər öz qaydasında gedir. Hörgü işləri yekunlaşan binanın hazırda dam örtüyü vurulur. Binanın tamamilə travertin daşlarla üzlənməsinin başa çatdırıldığını bildirən iş icraçısı daxildə suvaq işlərinin, ətrafda isə abadlıq tədbirlərinin davam etdirildiyini vurğuladı. İş icraçısından onu da öyrəndik ki, binanın tikintisində və üzlənməsində, əsasən, yerli tikinti materiallarından istifadə olunur.

Şərq memarlığı ilə müasir Qərb memarlığının incəliklərini özündə birləşdirən yeni hamamın günbəzvarı dam örtüyü, incəliklə işlənən sütunları gələcəkdə binaya daha böyük əzəmət bəxş edəcəkdir.

***Beləliklə, “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram” günü-gündən dəyişən və inkişaf edən Naxçıvan şəhərinin yeni mərhələyə qədəm qoymasına şərait yaradır. Bu isə “İslam mədəniyyətinin paytaxtı” statusunu təhvil alacaq, bəzilərinin “Qafqazın San-Fransiskosu”, digərlərinin isə ictimai-siyasi fikrin formalaşmasındakı əhəmiyyətinə görə “Qafqazın Strasburqu” adlandırdıqları Naxçıvan üçün çox vacibdir.***

**Qafar QƏRİB**

# Yeni modellərdə avtomobil istehsalına başlanılıb

***Son illər muxtar respublikamızda həyata keçirilən irimiqyaslı layihələrdən biri olan Naxçıvan Avtomobil Zavodunda 2010-cu ilin yanvar ayından avtomobil istehsalına başlanılıb. İstehsal sahəsi, satış salonu, anbar və inzibati binadan ibarət olan zavodun 2472 kvadratmetrlik ərazisində Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb. Bütün bunlar üçün, ümumilikdə, 3 milyon 800 min manat sərf olunub ki, bunun 1 milyon manatı Sahibkarlığa Kömək Fondundan ödənilib.***

Müəssisədə ilk dövrdə “NAZ-Lifan” markası ilə baqaj hissəsi salonda olan (xetçbek) “320” və “520İ”, baqaj bölməsi salondan kənarda yerləşən (sedan) “520” və “620” modellərində avtomobillər istehsal edilib. 2011-ci ildə yeni “NAZ-Lifan-X-60” modelinin istehsalı üçün konveyer xəttində müəyyən dəyişikliklər aparılıb, 2012-ci ilin yanvar ayından etibarən isə “NAZ-Lifan-X-60” modelinin istehsalına başlanılıb. Həmçinin müəssisəyə təcrübə-sınaq məqsədilə 2012-ci ilin sonunda kiçik partiyada 6 nəfərlik mikroavtobus və 800 kiloqram yükgötürən avtomobillərin hissələri idxal olunub. Artıq “NAZ-Lifan” markalı 6 nəfərlik mikroavtobusun “LF-6401” modeli, 800 kiloqram yükgötürən furqonlu avtomobilin “LF-5028” modeli və 800 kiloqram yükgötürən bortlu yük avtomobilinin “LF-1022” modeli satışa çıxarılıb. Məqsəd bazarı öyrənmək və gələcəkdə tələbat olarsa, genişhəcmli istehsala başlamaq olub. Ötən ilin oktyabr ayında “NAZ-Lifan-620” modelli avtomobillər avtomatik sürət qutusu ilə təchiz edilərək satışa çıxarılıb. Həmçinin Naxçıvan Avtomobil Zavodunda yeni layihə həyata keçirilib, cari ildə istər texniki göstəriciləri, istərsə də keyfiyyət baxımından daha komfortlu “NAZ-Lifan” markalı avtomobillərin “330”, “630” və “720” modelləri istehsal olunaraq satışa çıxarılıb ki, bu da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Beləliklə, zavodda 9 modeldə “NAZ-Lifan” markalı minik avtomobilləri istehsal edilir. İllik istehsal gücü 12-15 min ədəd minik avtomobili olan Naxçıvan Avtomobil Zavodu Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir.

Zavod fəaliyyətə başlayan zaman ilkin mərhələdə istehsal prosesi xarici mütəxəssislər tərəfindən aparılırdısa, hazırda bu iş yerli mütəxəssislər tərəfindən həyata keçirilir. Zavodda, ümumilikdə, 70 nəfər çalışır.



Avtomobil zavodunun fəaliyyətə başladığı dövrdən ötən 5 ilin 4 ili “NAZ-Lifan” markalı minik avtomobillərinin tanıdılması və alıcı etibarının qazanılması mərhələsi olub. Bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib. Müqayisə üçün qeyd edək ki, 2010-2013-cü illərdə zavodda 2085 ədəd “NAZ-Lifan” markalı minik avtomobili istehsal olunub satışa çıxarılıbsa, təkcə 2014-cü ildə 1891 ədəd “NAZ-Lifan” markalı minik avtomobili istehsal olunub satışa çıxarılıb. Mühərrik və sürət qutusuna 40 min kilometr və ya 2 il zəmanət verilən avtomobillərin satışı nağd və ya sərfəli kredit şərtləri ilə aparılır. Avtomobillərin dəyəri 7500-16000 manat arasında dəyişir.

Hazırda istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim olunması ilə əlaqədar layihələr hazırlanır. Müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Bu isə ban hissələrinin sökülü vəziyyətə gətirilməklə müəssisədə qaynaq olunmasına imkan verəcək. Hesablamalara görə, 1 konteynerə orta hesabla 6 avtomobil banı yerləşirsə, sökülü vəziyyətdə 150-200 avtomobil banı yerləşir ki, bu da daşınma xərcinin xeyli azalması deməkdir.

İstehsal olunan avtomobillərin milliləşdirilməsi planlaşdırılır. Bunun üçün avtomobil hissələrinin 51 faizinin ölkəmizdə istehsal olunması şərtdir. Bu məqsədlə avtomobilin müəyyən hissələrinin ölkəmizdə, o cümlədən Naxçıvanda istehsal edilməsi nəzərdə tutulur.

Naxçıvan Avtomobil Zavodunda istehsal olunan minik avtomobillərinin satışı işi də yüksək səviyyədə aparılır, Naxçıvan və Bakı şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları yaradılıb. Yaxın vaxtlarda isə Gəncə, Şəki və Lənkəran şəhərlərində, Xaçmaz rayonunda satış mərkəzlərinin, texniki xidmət şöbələrinin və avtomobillərin ehtiyat hissələrinin satışı mağazalarının yaradılması nəzərdə tutulub ki, bu da həmin bölgələrdə və ətraf rayonlarda istismar olunan “NAZ-Lifan” markalı minik avtomobillərinə Bakı şəhərinə aparmadan yerində texniki xidmət göstərilməsinə əlverişli şərait yaradacaq.

Qeyd edək ki, “NAZ-Lifan” markalı minik avtomobilləri maşın bazarında artıq özünəməxsus yer tutub. Sevindirici haldır ki, yerli istehsala önəm verilir, Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillər ölkəmizin digər regionlarında da rəğbətlə qarşılanır.

Məlumat üçün bildirək ki, hazırda muxtar respublikamızda, Bakı, Sumqayıt, Neftçala, Xaçmaz və Qubada “NAZ-Lifan” markalı minik avtomobilləri ilə taksi xidməti göstərilir.

**Kərəm HƏSƏNOV**

Ziyalı sözü

# Naxçıvanda milli dəyərlərə ehtiram yüksək səviyyədədir

*AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə: Vətən, dövlət, millət ən böyük milli dəyərlərimizdir*

**Milli dəyərləri məxsus olduğu xalqın mənəvi kimliyi adlandıranlar səhv etmirlər. Bu dəyərlərin yaşadılması yüzilliklər boyu cilalana-cilalana dövrümüzə qədər gəlib çatmış ən qiymətli sərvətlərimizə böyük ehtiramın ifadəsidir. Çünki milli dəyərlərimizdə onları yaradan ulularımızın ruhu yaşayır; onlarda xalqın tarixi, adət-ənənələri yaşayır. Bu cəhətdən qürur hissi keçirməyə mənəvi haqqımız çatır ki, Naxçıvanda milli dəyərlərə ehtiram hissi yüksək səviyyədədir və dövlət tərəfindən onların tədqiqi, təbliği, gələcək nəsillərə olduğu kimi ötürülməsi istiqamətində kompleks tədbirlərə start verilib. Bütün bunlar barədə suallarımızı rubrikamızın bugünkü qonağı, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə cavablandırır.**

***– Hər xalqın milli dəyərləri həmin xalqın milli təfəkkürünün məhsulu hesab edilir və xalq onları qoruyub saxlamaqla var olur. Bu barədə nə deyə bilərsiniz?***

– Bu sualın ən dolğun cavabı öz əksini xalqımızın ümummilli lideri Heydər Əliyevin aşağıdakı kəlamında tapmışdır: ***“...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.***

Bəli, biz bununla varıq, bunlardır bizi xalqlar içərisində xalq, millətlər arasında millət kimi tanıdan. Bəzən milli dəyərlərimizi ayrıca bir sahə kimi, sanki məişət məsələsi kimi xarakterizə etmək hallarına da rast gəlinir. Bir növ, bunu xalqın, əhalinin problemi səviyyəsində təqdim etməklə işi bitmiş hesab edirlər. Ulu öndər Heydər Əliyev isə milli dəyərlərimizə Azərbaycançılıq ideologiyasının, milli ideologiyamızın ayrılmaz tərkib hissəsi kimi baxmaqla onu müstəqilliyimizin əlaməti kimi dəyərləndirərək deyirdi ki, dil, din, adət-ənənə (bunların şüur müstəvisində proyeksiyası olan milli mentalitet) – bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir.

***– Azərbaycan xalqının həmişə yüksək qiymət verilən bu sərvətlərinə ölkəmizdə müxtəlif dövrlərdə, müxtəlif quruluşlarda fərqli baxışlar olub. Lakin bunlara baxmayaraq, həmin dəyərlər qorunub saxlanıb. Bu proseslərdə hansı amillər əsas rol oynayıb?***

– Bu sualınız məni həm uzaq, həm də yaxın keçmişə aparır. Bir tərəfdən milli dəyərlərimizə hərtərəfli hücum, onlarla bağlı əsassız iddialar, digər tərəfdən onların məişətdən çıxarılması üçün görülən tədbirlər. Yadıma bir məqam düşdü. O dövrdə Əshabi-Kəhflə bağlı bir yazı oxudum. Müəllif buranı “asobukeyf” adlandırırdı...

***– Bəs, ziyalılarımızın buna reaksiyası necə oldu?***

– Bundan sonra Moskva kitabxanalarından geniş material toplamaqla 1982-ci ildə Azərbaycan və rus dillərində Əshabi-Kəhf mağarasına inam, onun tarixi kökləri”adlı məqalə nəşr etdirdik. Sonrakı dövrlərdə bu dini, tarixi-memarlıq abidəsi geniş tədqiqata cəlb olundu. XIX əsrə və ondan sonrakı dövrlərə aid bir çox yazılarda Novruz bayramı keçmişin zərərli qalığı kimi təqdim olunmaqla ona qarşı hərtərəfli hücuma keçilmişdi. Lakin xalq, onun irəlidə gedənləri bunları qoruyub saxlaya bildi. Bəli, adətlərimiz, inamlarımız ailələr səviyyəsində, elin gücü ilə yaşadılıb. Müəyyən cəhətdən tədqiqata cəlb edilməsinə baxmayaraq, bir sıra maddi və mənəvi dəyərlərimiz məişət səviyyəsindən yuxarı qaldırıla bilməməklə rəsmi olaraq milli dəyərlər hesab olunmurdu.

Milli şüurun bərpasına, adət-ənənələrimizə, milli dəyərlərimizə sahib çıxılmasına 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində başlanıldı. Bu, milli özünəqayıdışın, özünüdərkin yeni mərhələsi, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması, milli dəyərlərin dövlət səviyyəsində qorunması idi. Bununla bağlı bir sıra yazılarımızda ayrıca olaraq bəhs etdiyimizdən onun üzərində geniş dayanmaq niyyətində deyilik.

***– İstərdik ki, oxucularımıza milli dəyərlərimizlə bağlı yığcam halda məlumat verəsiniz.***

– Yığcam halda məsələni belə şərh edə bilərik. Milli dəyər maddi və mənəvinin vəhdəti və ya mənəvinin maddidə təzahür formalarından biri olmaqla özündə tarixi keçmişi, ilkin münasibətlərin milli münasibətlərə çevrilməsi proseslərini qoruyub saxlayan şərtləri ehtiva edir ki, buradan da milli mədəniyyətin formalaşması yaranır.

Milli mədəniyyət anlayışının əsas şərtlərindən biri də mənəvinin maddidə təcəllisidir. İnsan maddi və mənəvinin ən kamil nümunəsi olduğundan hər ikisinin inkişafı ondan asılıdır. İnsanın yaratdığı, çalışaraq düzəltdiyi, fiziki əməyinin məhsulu olan hər şeyi maddi mədəniyyətə aid etmək olar. Sadədən mürəkkəbə doğru tikililər, sənətkarlıq nümunələri, məşğuliyyət sahələri və sair insan düşüncəsinin təzahür formasıdır. Deməli, insanın yaratdığı hər maddinin mayasında mənəvilik, dünyabaxışı, təbii-coğrafi amillər, regionallıq, ənənəvilik dayanmaqla sonda təklərin, ayrıların vəhdətindən millilik meydana gəlir. Bu baxımdan mənəvinin yüksək təsiri olmadan millinin təzahürü mümkün deyil. Millət anlayışına uyğun olaraq, milli dəyərlər müəyyən zaman və məkan daxilində ümumi dil, mənəvi-psixoloji, tarixi-coğrafi əraziyə, uzun illər boyu formalaşmış adət-ənənəyə uyğun olaraq yaranmış bir mədəniyyətdir. Bu mədəniyyət maddinin özünəməxsusluğu, mənəvinin maddidə təzahürü, tətbiqi obyektidir...

***– Konkret olaraq bunu necə şərh edərdiniz?***

– İki nümunə ilə məsələni aydınlaşdıraq. Götürək milli geyimləri. Geyim insan həyatı üçün zəruri olan və onu digər canlılardan fərqləndirən əsas amillərdən biridir. İlkin mərhələdə geyimin milliliyindən söhbət gedə bilməz. Bu, sadəcə olaraq, isti-soyuqdan qorunmaq və örtünmək vasitəsidir. Zaman keçdikcə bəzəkli geyimlər üstünlük təşkil etməyə başlayıb ki, buradan təbii-coğrafi şəraitə, regional xüsusiyyətlərə malik olan geyimlər yaranıb. Tarixin sonrakı inkişaf mərhələsində geyimin estetik-milli cəhətləri meydana gəlib. Yəni maddi olan mənəvi cəhətdən zənginləşdirilərək milli dəyərə çevrilib. Digər maddilərdə olduğu kimi, geyimlərin də formalaşmasında regional cəhətlərlə yanaşı, xalqın dünyabaxışı, inamlar və yasaqlar sistemi də ciddi rol oynayır. Beləliklə, uzun illərin qarşılıqlı əlaqələri, sintezi nəticəsində Azərbaycan türklərinə məxsus milli geyim və bəzəklər formalaşaraq milli dəyər səviyyəsinə qalxıb.

Milli dəyərlərimizin ən zəngin sahələrindən biri tarixi-memarlıq abidələridir ki, Naxçıvan bu sahədə diqqətçəkən xüsusiyyət – Naxçıvan memarlıq məktəbinə malikdir.

***– Son 19 ildə muxtar respublikamızda milli dəyərlərin təbliği, yaşadılması, gələcək nəsillərə ötürülməsi istiqamətində genişhəcmli tədbirlər prosesinə başlanılıb. Ötən dövr ərzində görülən işlər bu sahədə uğurlu nəticələrlə xarakterizə edilir. Oxucularımıza bu haqda məlumat verməyinizi xahiş edirik.***

– Milli dəyərləri qorumaqla bağlı xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmış kurs Naxçıvanda uğurla davam etdirilməklə onların qorunub saxlanılması, hərtərəfli tədqiqi ilə əlaqədar ardıcıl işlər görülməkdədir. Milli dəyərlərə böyük önəm verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Tarix sübut edir ki, hər bir xalqı yaşadan onun milli dəyərləri – dili, adət-ənənələri, mədəniyyətidir”.*** Bəli, xalq onda var olur ki, onun min illər boyu yaradıb el süzgəcindən keçərək qorunan və milli dəyərinə çevrilən maddi və mənəvi sərvətləri vardır. Milli dəyərlər onda dayanıqlı olur ki, xalqın onu qoruması, yaşatması ilə yanaşı, onlara dövlət qayğısı yüksək səviyyədə olur. Son 19 ildə bu sahəyə diqqət artırılmaqla ciddi tədbirlər görülüb, 2012-ci il muxtar respublikamızda “Milli dəyərlər ili” elan olunub. Təbii ki, buna qədər muxtar respublikada milli dəyərlərin, milli irsin tədqiqi, qorunub saxlanması, təbliği ilə əlaqədar bir sıra tədbirlər reallaşdırılıb. Bu sahədə ciddi dönüş 1996-cı ildə “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumu ilə başlayıb və sonralar ardıcıl olaraq çox sayda sərəncamlar verilməklə bir müsahibədə ifadəyə deyil, cildlərlə kitablara sığmayacaq nəticələr əldə edilib.

***– Məsələn.***

– Naxçıvanda problem alt qatdan, zəmindən başlayaraq tədricən yetişdirilərək həll olunur. Yəni hər bir məsələnin yetişməsinə, tədrici inkişafına xüsusi önəm verilməklə onun zamanında həll edilməsi, dövlət səviyyəsində tədbirlər görülməsi gündəmə gətirilir. Eyni vəziyyəti biz “Milli dəyərlər ili”nəqədərki tədbirlərdə də görürük. Naxçıvanda elm, təhsil, mədəniyyətlə bağlı ardıcıl sərəncamlar verilir, tədbirlər həyata keçirilir və bütün bunlar yeni bir tədbirin həyata keçirilməsinə hərtərəfli şərait yaradır. Bunları nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 7 fevral 2009-cu il tarixdə “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncam imzaladı. Həmin sərəncamda milli-mənəvi dəyərlərimizin digər sahələri ilə yanaşı, milli geyimlərin, milli mətbəxin öyrənilməsinə və təbliğinə də xüsusi diqqət yetirmək əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Sərəncamda deyilir ki, ***“Milli geyim və milli mətbəx xalq yaradıcılığının ən mühüm sahələrindən biridir. Naxçıvanda bu sahələr daha qədim dövrlərdən yaranmış, təbii-coğrafi şəraitə uyğun olaraq formalaşmış, inkişaf etmiş, hər əsrdə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir”.*** Ümumiyyətlə, sərəncamda maddi və mənəvi mədəniyyətimizin aparıcı sahəsi olan xalq yaradıcılığının, el sənətkarlığının əsaslı şəkildə öyrənilməsi, bununla bağlı etnoqrafik və folklor materiallarının yenidən toplanması, sistemləşdirilməsi və elmi şəkildə araşdırılması ciddi vəzifə kimi qarşıya qoyulur. Bəli, bu kimi tədbirlər nəticəsində xeyli sayda sanballı kitablar, əsər və məqalələr yazılmışdır.

***– Tariximizlə yol gələn milli dəyərlərimizin bir qolu da elə tariximizdir. Ona görə də muxtar respublikamızda tariximizin, mədəniyyət və abidələrimizin öyrənilməsi prioritet sahə kimi diqqət çəkir. Bu sahədə görülən işlərə münasibətinizi öyrənmək maraqlı olardı.***

– Məhz 1996-cı ildəki konfransda bu məsələ beynəlxalq səviyyədə gündəmə gətirilmişdi. 2001-ci ildə Gəmiqaya abidələrinin tədqiqi ilə bağlı sərəncam bu sahəyə diqqəti daha da artırdı. Bu baxımdan ciddi hazırlıqlardan sonra dahi rəhbər Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsinin yaradılması diqqəti daha çox cəlb edir. Bölmənin yaradılması ilə bağlı ümummilli lider Heydər Əliyev demişdir: ***“Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən, dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olardı deyim ki, öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var”.*** Elmin digər sahələri ilə yanaşı, müdrik rəhbər Heydər Əliyev Naxçıvan tarixinin araşdırılmasına xüsusi önəm verirdi.

Bundan sonra tədqiqatların genişlənməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bir neçə sərəncamı, xüsusilə “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr, “Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında” 2006-cı il 27 iyun tarixli sərəncamları Naxçıvanda tarix elminin inkişafına böyük təkan verdi. Digər sahələrlə yanaşı, tarix elminin inkişafı da daim diqqət mərkəzindədir. Bir faktı vurğulamaq istərdim. 2002-ci ildə Naxçıvanda bir nəfər tarix elmləri doktoru var idi. İndi bu sahədə bir nəfər akademik, dörd nəfər AMEA-nın müxbir üzvü çalışır. Son illərdə bu sahədə nəşr olunmuş monoqrafiya, kitab və məqalələrin sayı o qədərdir ki, indi onların tam sayını demək mümkün deyil. Bu fakt həmin sahəyə böyük diqqətin ifadəsi kimi dəyərləndirilə bilər.

***– Milli dəyərlərimizin qorunması və təbliği ilə bağlı görülən işlərdən danışdınız. Ziyalılarımıza, gənclərimizə, ümumiyyətlə, oxucularımıza bu istiqamətdə məsləhət və tövsiyələrinizi eşitmək istərdik.***

– Milli dəyərlərimizi öyrənmək, qorumaq və təbliğ etmək, hər kəsdən əvvəl, bu sahə ilə məşğul olan araşdırıcıların, digər ziyalıların və geniş oxucu kütləsi olan xalqımızın ümumi işidir. Təbii ki, buna dövlət səviyyəsində qayğı yüksəkdir. Lakin ümumi sərvətimiz olan milli dəyərlərimizin hər kəs tərəfindən, ailələrin fərdi üzvlərindən başlamış məhəllə, kənd, şəhər, nəhayət, ümumrespublika səviyyəsində qorunması gərəkdir. Milli dəyərlərimizi, adət-ənənələrimizi yad ünsürlərdən qorumasaq, onları milli mentalitetimizə uymayan hallarla zədələsək, bizə əmanət olunanı zənginləşdirərək gələcək nəsillərə çatdırmasaq, etnik kimliyimizi təhlükəyə ata bilərik. Məncə, ailə-məişət, nikah münasibətlərinə, ənənəvi tərbiyə məsələlərinə ciddi önəm verilməlidir. Gənc qızlarımız evdarlığı, ev peşəsini, uşaq tərbiyə etməyi, ailədaxili münasibətləri, oğlanlarımız kişiliyi, ən çətin anda belə, yaşlılarımızın “kişi ol” sözlərini yaddan çıxarmasınlar. Unutmayaq ki, bu VƏTƏN, bu DÖVLƏT, bu MİLLƏT ən böyük MİLLİ DƏYƏRİMİZDİR!

**Müsahibəni apardı:**
**Muxtar MƏMMƏDOV**

## Yüksəkixtisaslı həkim heyəti humanitar aksiya keçirir

***Bu gün səhiyyə sahəsində həyata keçirilən dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə əhatə olunmasından ibarətdir.***



Bu məqsədlə səhiyyə xidmətinin genişləndirilməsi və onun keyfiyyətinin artırılması, səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının daha da yaxşılaşdırılması, tibbi profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsi, yeni səhiyyə müəssisələrinin inşası işləri müntəzəm olaraq həyata keçirilir. Ölkəmizin paytaxtı Bakı şəhərində fəaliyyət göstərən kardiocərrahiyyə, uroloji, göz, angioqrafiya və digər ixtisaslar üzrə həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi, aztəminatlı ailələr üçün nəzərdə tutulmuş xüsusi sağlamlıq layihələrinin intensiv qaydada icra olunması davam etdirilir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yüksəkixtisaslı həkim briqadalarının hər il olduğu kimi, “Muxtariyyət ili”ndə də muxtar respublikamıza gəlməsi aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicə işinin daha da yaxşılaşmasına və həmin xəstələrin muxtar respublikadan kənara getmədən cərrahi əməliyyatların təşkilinə şərait yaradır.

Respublika Klinik Xəstəxanasının baş həkimi Telman İbadovun rəhbərlik etdiyi yüksəkixtisaslı həkim heyəti isə bu il ikinci dəfə – dekabr ayının 24-dən başlayaraq növbəti humanitar aksiya keçirir. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə Ordubad Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan üçgünlük aksiyada Klinik Xəstəxananın 22 yüksəkixtisaslı həkimi iştirak edir. Onlardan ginekoloq Zenfira Cəfərova, Kardiologiya şöbəsinin müdiri Rahimə Əlizadə, Endokrinologiya şöbəsinin müdiri Aynur Hümmətova, cərrah Zahid Zahidov, nevropatoloq Günel Hacıbalayeva, allerqoloq Lətifə Allahverdiyeva və başqalarının səyi ilə aksiyanın ilk günü 361 pasiyent profilaktik tibbi müayinə ilə əhatə edilib, cərrahi müdaxiləyə ehtiyacı olanlar üzərində LOR, göz və ümumi cərrahi əməliyyatlar aparılıb.

Aksiya zamanı pasiyentlər hematoloji, uroloji, nevroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunublar.

Pasiyentlər onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirərək öz minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Qaliblər mükafatlandırılıblar



Dekabrın 25-də Babək Rayon Mədəniyyət Evində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə müxtəlif nominasiyalar üzrə keçirilən müsabiqələrin qaliblərinin mükafatlandırılması mərasimi olub. Mərasimdə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Nailə Vəliyeva çıxış edərək bildirib ki, muxtariyyət statusu qazandığımızdan sonra muxtar respublikanın tarixində köklü dəyişikliklər baş verib. 90 illik muxtariyyət dövrünün son 19 ili isə Naxçıvanın muxtariyyət tarixinin intibah dövrüdür. Blokadanın çətinliklərinə baxmayaraq, 1995-2014-cü illərdə muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilib, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunub.

Babək Rayon Təhsil Şöbəsinin müdiri Kamil Kazımov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi ilə əlaqədar Babək Rayon İcra Hakimiyyətinin tədbirlər planına əsasən, rayonun idarə və təşkilatlarında geniş tədbirlər keçirilib. Rayonumuzun ümumtəhsil məktəblərində yanvar ayından başlayaraq qrafik əsasında elmi-praktik konfranslar, şahmat, dama, bilik yarışları, inşa-yazı və şeir müsabiqələri təşkil olunub. Müsabiqələr 4 zona üzrə təşkil edilib. Zona yarışlarının qalibləri final mərhələsində iştirak etmək hüququ qazanıblar. Bugünkü tədbir də final mərhələsində qalib olan şagirdlərin İcra Hakimiyyəti tərəfindən mükafatlandırılmasına həsr olunub.

Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri əvəzi Niyaz İsmayılov muxtar respublikada mədəniyyət sahəsinə göstərilən diqqət və qayğıdan danışıb. Qeyd olunub ki, muxtar respublikada 1995-2014-cü illərdə bütün sahələr kimi, mədəniyyət sahəsi də əsl intibaha qovuşub. Naxçıvan Muxtar Respublikasında 350-dən çox mədəniyyət obyektinin tikilib istifadəyə verilməsi və ya bərpa edilməsi regionda mədəniyyətin inkişafına real təminat yaradıb.

Daha sonra qaliblər Babək Rayon İcra Hakimiyyəti tərəfindən mükafatlandırılıb, Babək rayonunun uşaq musiqi məktəblərinin konsert proqramı olub.

## Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş rəsm müsabiqəsinə yekun vurulub



Dekabrın 25-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş "Yurdum mənim" adlı rəsm müsabiqəsinin yekun tədbiri keçirilib. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən müsabiqədə muxtar respublikanın gənc rəssamları iştirak edirdilər.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva müsabiqə barədə iştirakçılara ətraflı məlumat verib.

Bildirilib ki, müsabiqənin keçirilməsində məqsəd istedadlı gənc rəssamların üzə çıxarılması, onların yaradıcılığının stimullaşdırılmasıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Canməmməd Canməmmədov, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Məmmədəli Ələkbərov çıxış edərək gənc rəssamlara gələcək fəaliyyətlərində uğurlar və yeni-yeni nailiyyətlər arzulayıblar.

Sonra müsabiqənin qalibləri elan edilib. I yerə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Fizzə Quliyeva, II yerə Vüqar Mehdiyev, III yerə isə Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Rüqəyyə Bağırova və Naxçıvan Dövlət Universitetinin tələbəsi Akay Məmmədova layiq görülüblər.

Qaliblərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr verilib.

Sonra müsabiqəyə təqdim olunmuş əsərlərdən ibarət sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

## Yeni il bayramını təhlükəsiz keçirək

*Yeni il bayramını hər bir muxtar respublika sakini gözəl əhval-ruhiyyə ilə qarşılamağa çalışır. Hər bir evdə minbir nemətli süfrələr açılır, küknarlar bəzədilir, bu küknarlar müxtəlif işıqlandırma vasitələri ilə al-əlvan rəngə bürünür. Mədəniyyət, təhsil müəssisələrində və insanların bayram şənliyinə toplaşdığı yerlərdə Yeni il şənliklərinin və tədbirlərinin keçirilməsi münasibətilə müvafiq hazırlıq işləri aparılır. Bu vaxt əsas şərtlərdən biri şənliklərin təşkili və keçirilməsi zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasıdır. Adi bir ehtiyatsızlıq xoşagəlməz hadisəyə, yanğının baş verməsinə səbəb ola bilər.*

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən muxtar respublika ərazisində Yeni il şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı yanğın təhlükəsizliyinin təmin olunması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə tərtib olunmuş tədbirlər planına uyğun olaraq, mədəniyyət, təhsil müəssisələrində, insanların bayram şənliyinə toplaşdığı yerlərdə yoxlama-nəzarət və maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Fövqəladə Hallar Nazirliyi Yeni il şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı yanğın hadisələrinin baş verməməsi üçün vətəndaşları yanğın təhlükəsizliyi qaydalarının tələblərinə riayət etməyə çağırır.

Küknar ağacı möhkəm dayaq üzərində qurulmalı və ətrafında sərbəst hərəkət etmək üçün geniş məsafə saxlanılmalıdır. Küknar ağacı elektrik qurğularının quraşdırılması qaydalarına riayət olunmaqla işıqlandırılmalıdır. İşıqlandırmada nasazlıq hiss olunduqda, yəni naqillər qızdıqda, lampalar yanıb-söndükdə, qığılcım olduqda təcili onu elektrik şəbəkəsindən ayırmaq lazımdır.

Yeni il şənliyi keçirilərkən şamlardan, qığılcımsaçanlardan istifadə edilməsi, şam ağacının oyuncaqlarla, eləcə də odadavamlı məhlula hopdurulmamış pambıqla bəzədilməsi və işıqlandırılması qadağandır. Yeni il şənlikləri keçirilərkən azyaşlı uşaqların qızdırıcı və yaxud işıqlandırıcı cihazlardan istifadə etməsinə yol verilməmәlidir. Yadda saxlamaq lazımdır ki, bir elektrik uzadıcısına bir neçə elektrik cihazı qoşularsa, həmin xətt artıq yüklənir və yanğın təhlükəsi yaradır. Bayram şənlikləri keçirilən otaqların elektrik xətlərinin izolyasiyası saz vəziyyətdə olmalıdır. Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yanar materiallara yapışdırmaq yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. Yanar şamın nəzarətsiz qoyulması xoşagəlməz hadisələrin baş verməsinə gətirib çıxara bilər. Uşaq bağçalarının və mədəniyyət ocaqlarının rəhbərləri bilməlidirlər ki, küknar ağacları qurulan otaqlardan xaricə iki sərbəst çıxış yolu olmalıdır və həmin çıxışların qapıları mütləq çıxış istiqamətinə açılmalıdır. Çıxış qapılarının qarşısına kənar əşyalar yığılmamalıdır.



Yeni il tədbirləri və şənlikləri keçirilən yerlərdə yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi məqsədilə həmin yerlər ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir.

Qeyd olunanlarla bağlı baş verə biləcək xoşagəlməz hadisələrin vaxtında qarşısının alınması üçün vətəndaşlarımız diqqətli olmalı, təhlükəsizlik məsələlərində fəal iştirak etməli və belə hallarla üzləşdikdə dərhal Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin ***"112"*** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin ***"101"*** xidmətinə məlumat verilməlidir.

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

*Yeni nəşrlər*

## Uğurlu tərbiyədə etnopedaqoji materiallardan istifadə

***Bu günlərdə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalovun və pedaqogika üzrə fəlsəfə doktoru Lalə Allahverdiyevanın həmmüəllifləri olduqları "Ailədə tərbiyə üsullarının tətbiqi zamanı etnopedaqoji materiallardan istifadə imkanları" adlı metodik vəsait işıq üzü görüb. Naxçıvan Müəllimlər İnstitutunun Elmi Şurasının qərarı ilə "Elm və təhsil" nəşriyyatında çap olunan metodik vəsaitin elmi redaktoru pedaqogika üzrə elmlər doktoru, Əməkdar elm xadimi Oruc Həsənlidir.***




"Giriş", iki fəsil və "Nəticə"dən ibarət əsərdə, əsas etibarilə, müasir pedaqogika elmi üçün yeni olan etnopedaqogikanın milli ruhda tərbiyədə rolundan bəhs edilir. Metodik vəsaitdən məlum olur ki, etnopedaqogika özündə xalqın tərbiyə prosesində əsas götürdüyü fikir və ideyaları, adət və ənənələri, etnoqrafik və tarixi sənədləri, xüsusilə folklor materiallarını ehtiva edir. Müasir ailədə uşaqların milli dəyərlərə sahib vətəndaşlar kimi formalaşmalarında etnopedaqogikanın mühüm əhəmiyyətli məqamlarından bəhs edilməsi metodik vəsaitin yenilikçi məziyyətlərindəndir.

Kitabın "Ailə tərbiyəsinin məqsədi və vəzifələri" adlanan birinci fəslində müasir dövrdə ailə tərbiyəsinin xüsusiyyətlərindən, tərbiyə prosesində ailənin əsas vəzifələrindən və ailə tərbiyəsində istifadə edilməsi lazım olan etnopedaqoji materialların növlərindən bəhs olunur. Müəlliflər bildirirlər ki, uşaq məhz ailədə ilk dəfə şəxsiyyətlərarası münasibətlər təcrübəsi qazanır, burada onun həyat mövqeyinin əsasları qoyulur. Ailədə gördüyü tərbiyə uşağın sonrakı həyatında müəyyən formada bu və ya digər formada özünü büruzə verir. Bu mənada insanın şəxsiyyət kimi formalaşmasına ailənin təsir gücü və müddəti baxımından heç bir digər sosial tərbiyə institutları ailə ilə müqayisə edilə bilməz. Bu cür böyük və təsiredici imkana malik ailə övladlarının tərbiyəsində son dərəcə diqqətli olmalı, uşağın hər hansısa bir hərəkətinə və ya ifadəsinə münasibətdə məsuliyyəti əldən verməməlidir. Bu məsuliyyət uşaq dünyaya gəldiyi ilk gündən duyulmalı, uşağın tərbiyəsinə həmin vaxtdan başlanılmalıdır.

Birinci fəslin "Müasir dövrdə ailə tərbiyəsinin xüsusiyyətləri" adlı yarımbaşlığında oxuyuruq: "Uşaq anadan olduğu ilk gündən ... ailədə psixoloji iqlimi qavramağa başlayır... Bu öyrənmə uşaq psixologiyasının xüsusiyyətlərindən irəli gələn səbəblər üzündən insanın sonrakı formalaşmasında dərin izlər buraxır, şəxsiyyətin inkişafında əhəmiyyətli rol oynayır". Buna görə müəlliflər valideynlərin övladlarına öyrətmək istədikləri bacarıqların ardıcıllığına və onlarda tərbiyə etmək istədikləri keyfiyyətlərin mürəkkəblik sisteminə diqqət etmələrinin vacib olduğu qənaətinə gəlirlər.

Sözügedən fəsildə ailə tərbiyəsinin uğurlu olması üçün müvafiq prinsiplər müəyyənləşdirilmişdir: böyüyən insana humanist və xeyirxah münasibət; uşaqları bərabərhüquqlu üzvlər kimi ailənin həyat fəaliyyətinə cəlb etmək; ailədə mədəni, nəzakətli, inam və etibara əsaslanan qarşılıqlı münasibətin formalaşdırılması və bu münasibətin uşaqların davranışlarında, hərəkətlərində özünübüruzəyə nail olunması.

Qeyd edək ki, uşaq yaşa dolduqca məhz yuxarıda sadalanan müsbət keyfiyyətləri özündə cəmləşdirməklə cəmiyyətdə şəxsiyyət kimi tanınacaq. Bu cür tanınma imkan verəcək ki, o, həyatının bütün mərhələlərində digərləri üçün meyar rolunu oynasın, yəni onun sözü, əməlləri ədalətin təcəssümü kimi qəbul edilsin.

Metodik vəsaitin ikinci fəsli "Etnopedaqoji materiallardan istifadənin ailə tərbiyəsi üsullarının səmərəliliyinə təsiri" adlanır. Bu fəsildə tərbiyə zamanı insan həyatı üçün vacib olan əxlaqi şüurun formalaşdırılması prosesindən və bu prosesin milli zəmində aparılması məqsədilə etnopedaqoji materiallardan istifadə üsullarından, rəğbətləndirmə və cəzalandırmada etnopedaqoji materiallardan istifadə imkanlarından bəhs edilir, ailə tərbiyəsində xalq pedaqogikasının nümunə gücündə olması əhatəli təhlillərlə şərh olunur.

Adıçəkilən fəsildə ilk olaraq əxlaqi şüurun əhatə etdiyi anlayışlar izah edilir. Bildirilir ki, yaxşı ilə pisin, halal ilə haramın, xeyirlə şərin, haqsızlıqla ədalətin ayırd edilməsi, insanpərvərlik, vicdanlı yanaşma və vətənpərvərlik əxlaqi şüurun əhatə etdiyi anlayışlardır. Və bu anlayışların uşaqlara kiçik yaşlarından aşılanması onlarda kamillik əlamətinin təzahürü ilə nəticələnəcəkdir ki, bu, etnopedaqoji materiallarda tərənnüm və təbliğ olunan ən ali insani keyfiyyətlərdəndir. Məhz bütün bu keyfiyyətlər imkan verəcək ki, həddi-büluğa çatmış gənc gələcəkdə öz əməyi ilə özünün və ailəsinin güzəranını təmin edə bilsin, özündə ehtiva etdiyi mükəmməl tərbiyə ilə övladlarını cəmiyyət üçün yararlı vətəndaş kimi tərbiyəsinə nail olsun.

Müəlliflər göstərirlər ki, mükəmməl tərbiyədə rəğbətləndirmə üsulundan istifadə həmişə uğurlu olmuşdur. Lakin rəğbətləndirmə də yerində, zamanında və həddində olmalıdır. Metodik vəsaitdə ilk dəfə olaraq bəyənmə rəğbətləndirmənin ən mühüm növü kimi təqdim edilir. Vurğulanır ki, bu zaman valideyn diqqətli olmalı, övladının rəğbət doğuran hərəkətini, sözünü bəyəndiyini ifadə etməkdə "xəsis", eyni zamanda şitləşdirici olmamalıdır.

Kitabın "Nəticə"sində müəlliflər belə qənaətə gəlirlər ki, uşaq tərbiyəsinin beşiyi olan Azərbaycan ailəsində üzvlərin hər birinin öz yeri, mövqeyi və həmin mövqe ilə uzlaşan qədir-qiyməti, nüfuzu, hörməti olmalıdır. Uğurlu övlad tərbiyəsinin əsası pedaqoji mühitin formalaşdırıldığı ailədə qoyular.

Metodik vəsaitdən pedaqoji sahənin tədqiqatçıları, doktorant, magistrant və tələbələr, ümumtəhsil məktəblərinin müəllimləri, həmçinin sağlam, cəmiyyət üçün faydalı ola bilən övlad tərbiyə etmək istəyən valideynlər istifadə edə bilərlər.

✍ **Səyyar MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1074